**Sevinc Məmmədova** [59]

# XX ƏSRİN I YARISINDA ALMAN ƏDƏBİYYATINDA REALİZMİN TƏŞƏKKÜLÜ VƏ XÜSUSİYYƏTLƏRİ

XIX əsrin sonu, XX əsrin ilk yarısı Avropada olduğu kimi, Almaniyada da böyük çevrilişlərlə nəticələndi. XX əsr həm də Almaniyanın sənaye və texnologiya inkişafının sürətlə yüksəldiyi bir dövr kimi tarixə düşmüşdür. Bu dövrdə sənaye və texnologiyanın sürətli inkişafı elm və incəsənətə də yeni anlayışlar qazandırmışdır. İctimai mədəniyyətə, əxlaqa və bəşəri dəyərlərə təsir edən bu inkişaflar XX əsr Alman ədəbiyyatına da özünü göstərmişdir.

1920-ci illərdən başlayaraq, Almaniyada tədricən bütün dünyanı təsir altına alacaq siyasi hadisələr yaşanmağa başlandı. İqtisadi və siyasi baxımdan dünya hökmranlığı yarışında daha da güclənmək üçün faşist hərəkatlarını qidalandıran iri şirkətlər sonda, yəni 1933-cü ildə hakimiyyəti Hitler faşizminə verdilər.

Hitler faşizmi təkcə hərbi, siyasi və iqtisadi nizam-intizamla deyil, həm də cəmiyyətin bütün həyatına bilavasitə təsir edəcək əməllərlə məşğul olur, mədəniyyət və incəsənət sahəsini öz faşist ideologiyası və günün tələbləri əsasında formalaşdırmağa çalışırdı. Təkcə sosialist, inqilabçı yazıçı və sənət adamları deyil, o dövrdə bu siyasi faktorun gərəksiz hesab etdiyi çoxlu sayda ədəbiyyat, sənət adamları və ziyalılar da faşizmin qəzəbinə məruz qaldılar.

Bu dövrdə ədəbiyyatda bir çox yeni cərəyanlar yarandı, əvvəl yaranan bəzi cərəyanlar inkişaf etdi. Bu dövrdə realizmin bir neçə qolu inkişaf etməyə başladı. Bu qollardan da biri sosialist realizm idi ki, bu dövrdə çiçəkləndi. Sosialist realizm terminine nəzər salsaq, görərik ki, əsası XIX əsrin sonu - XX əsrin əvvəllərində qoyulmuş ədəbi üslub sosial və ya siyasi məzmun daşıyır. "Termin Sovet ədəbi tənqidi nəzəriyyələrindən götürülmüşdür və bədii təcrübənin konsepsiyasının məzmunu və xüsusiyyətləri, əsasən, alman marksist estetikasının ənənələri ilə əvvəlcədən müəyyən edilmişdir" (7, s. 195).

Tənqidi realizmə bənzəsə də, daha çox plastik sənətlərdən istifadə olunur, bundan başqa, burada əsas fərq konseptuallıqdan daha çox xronoloji səciyyə daşımasındadır. Sosial realizm romatnizmin təbliğ etdiyi idealizmə, eləcə də şişirdilmiş eqoya qarşı inkişaf etmişdir. Sosialist realistər yeni ictimai şüur hissi ilə gözə və hisslərə xitab edən istənilən üslubla mübarizə aparmağı qarşılarına məqsəd qoydular. Müasir yaşamın eybəcərliklərini üzə çıxarmaq, yoxsullara simpatiya qurmaq sosial realistlərin başlıca əlamətləri sırasında idi. Tərəfsizlik də bu cərəyanın üzvlərinə aid idi, gördüklərini olduğu kimi əks etdirirdilər. Tomas Mann "Buddenbrook ailəsi", eləcə də kiçik hekayələrində, H.Mann "Unrath müəllim", Berrenxar Klerman "Tunel" hekayəsində sosializmin izlərini əks etdirməkdən çətinmirlər.

20-ci əsr ədəbiyyatında iz qoymuş, Nobel mükafatlı yazıçı Tomas Mann əsərlərində dini, faşizmi və burjuaziyanın tənqidinə yer vermişdir. 1929-cu ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür. O, yalnız 26 yaşında olarkən əsas əsəri olan "Buddenbrook Ailəsi"ni yazdı. Kitab Lübek burjuaziyasının tənqidini əhatə edir. Mann bu kitaba 1897-ci ildə ailənin tək bir üzvü haqqında kiçik bir hekayə kimi başlamışdır. Bununla belə, içində olduğu ictimai quruluşdan qidalanaraq hekayəni dörd nəsil boyu davam edən tipik bir alman ailəsinin dağılması məqamlarına toxunmuşdur. Burjuaziya yüksək Avropa dəyərləri altında inkişaf edərkən, bunun doğurduğu dinə, əxlaqa və dəbdəbəyə aludəçilik əsərdə tənqid olunmuşdur.

20-ci əsrin əvvəllərində Almaniyada zəhmətkeşlərin zülm və istismara qarşı mübarizəsi siyasi sistemi şübhə altına alan, şəxsiyyətin azadlığını müdafiə edən ədəbi əsərlərin yaranmasına, bunları dəstəkləyən ədəbi mühitin formalaşmasına səbəb oldu. Mann Qardaşları cəmiyyətin avtoritar quruluşunu və burjuaziyanın hərcmərcliyini dilə gətirərkən, Remark müharibələri hədəf alan humanist əsərləri ilə diqqət çəkdi. Yazıçılar və şairlər üçün qorxulu və qaranlıq bir dövr olan 1933-1945-ci illər arasında ədəbiyyatın da faşizmdən "payı" var idi: sürgünlər, kitabların yandırılması və qadağalar tarixdə qaranlıq bir iz buraxdı. Belə ki, 1890-cı ildən sonra realizm öz yerini sosial ədalətsizlik, cinayət, yoxsulların həyat şəraiti və insan inkişafında irsiyyətin rolundan bəhs edən ədəbi cərəyan olan Naturalizmə verdi.

"Realizm" və "Naturalizm" terminləri bir-birinə çox yaxındır. Rəssamlıqda bu cərəyanların hər ikisi 19-cu əsrin ortalarında meydana çıxan cərəyanlar idi, romantizmə qarşı olan ədəbi üslublar formalaşdırmaqda idi. Hətta bədii ədəbiyyatda, incəsənətdə də müəyyən dərəcədə bu gün də aktualdır. Ancaq anlayışların oxşarlığına baxmayaraq, onları fərqləndirən məqamlar da mövcuddur.

Realizm real həyatı təmsil etməyə çalışır. Naturalizm isə reallığı mümkün qədər dəqiq təsvir etməklə yanaşı, əlavələr də etməyi bacarır.

Əgər realist müharibənin dəhşətlərini təsvir edərkən meyitləri, kədəri, vəhşəti özündə əks etdirir. Naturalistlər isə daha dərinə gedir, döyüşçünün müharibədəki vəziyyətini də göz önünə gətirir. Hətta o qədər dəqiqliklə, xırdalıqla təsvir ediləcək ki, bütün eybəcərliklər üzə çıxacaq.

Realizm çox vaxt ümumiləşdirmələrə əl atır və konkret sosial təbəqənin maraqlarını əks etdirir. Naturalizm heç bir sosial və ya siyasi şüar üçün səy göstərmir və istinadlar, bədii təsvir vasitələri olmadan tam olaraq təsvir edir. Fikrimizi bu şəkildə də ifadə edə bilərik: realizm hansısa ideyanı çatdırmaq istədiyi təqdirdə, naturalizm sadəcə olanları çılpaqlığı ilə qələmə alır.

---

[59] Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasının dosenti

Gerhart Hauptmanın "Toxucular" (1893) romanı bəlkə də bu dövrün naturalizm cərəyanına məxsus dramların arasında ən yaxşısıdır.

Naturalizm yeni stilistik, koloristik, kompozisiya həlləri və ya texnikası axtarmır, sadəcə olara olanları, görünənləri sanki surətçıxmarma aparatından çıxarır.

Naturalizm bir dənədir, amma realizmlər çoxdur. Naturalizm reallığın dəqiq vizual surətinə, realizm isə eyni reallığın subyektiv dərkinə əsaslanır. Təbii ki, bu mənada rəssamın reallığı necə görməsindən asılı olaraq realizm həmişə fərqli olacaq.

Realizm daha çox mənaya söykənir, naturalizm isə daha çox formaya bağlıdır. Naturalistlər hadisələrə qərəzsiz yanaşır. O, şəkildəki gizli alt mətnləri və şərhləri gizlətmədən olanı təsvir edir. Realizm müxtəlif yollarla oxuna bilər.

Rəssamlıq sahəsində daha çox tanınan impressionizm, neoromantizm və simvolizm kimi cərəyanlar da bu dövrdə ədəbiyyatda öz əksini tapmışdır. İmpressionistlər cismlərin və hadisələrin izləyiciyə təsirini çap etməklə münasibət və ruh halı yaratmağa çalışırdılar. Neoromantika insan duyğularını və ehtiraslarını tərənnüm edən romantizm hərəkatını canlandırdı. Simvolistləri isə poetik simvollar, fantaziyalar və psixoanaliz heyran edirdi. Onlar təklif edirdilər ki, həqiqət məntiqi təfəkkürlə təsvir oluna bilməz, ancaq simvollarla təklif edilə bilər. XX əsr Alman ədəbiyyatında dövrün, eləcə də ədəbi mühitin şərtləri qarışıq idi. Ona görə də ədəbi cərəyanlara məxsus üzvləri, onların əsərlərinə verilən tələbləri müəyyənləşdirmək bəzən çətinlik yaradırdı. "Təbii" sözündən yaranan, XIX əsrin II yarısında formalaşan, XX əsrdə isə yüksəlişini yaşayan Naturalizm estetikası təbiətşünaslığa, başlıca olaraq, fiziologiyaya əsaslanırdı. İtaliyadakı verizm cərəyanı da naturalizmə yaxın cərəyanlardandır. Naturalizm XIX əsrin 60-cı illərində Fransada yaranmış, 70-80-ci illərdə başqa ölkələrdə də geniş yayılmışdı. Onun ilk əlamətləri Qustav Flober, xüsusilə Qonkur qardaşlarının yaradıcılığında əksini tapmışdır. Lakin naturalizmin formalaşması onun nəzəriyyəsini işləyib hazırlamış Emil Zolyanın adı ilə bağlıdır. Gi de Mopassan, H.Hauptman, F.Norris, A.Strindberq, Henrik İbsen, Knut Hamsun və başqalarının yaradıcılığına ciddi təsir göstərmişdir.

Naturalistlər realist yaradıcılıq üçün ədəbi materialın və obrazın fərdiliyinin prinsipial xarakterini nəzərə alaraq rəssamlıqda naturadan şəkil çəkmə prinsipinə bənzər bir ədəbi təsvir üsuluna meyil etməyə başladılar. Bir sıra fransız realistləri yazıcıdan obyektivlik, elmilik və s. tələb edirdilər. Bunlar da tarixilik məsələsinin aspektləri idi. Naturalizmin ədəbi manifestini 1880-ci ildə Emil Zolya "Eksperimental roman" adı ilə çap etdirdi. Buradakı eksperiment anlayışı o zaman darvinizmin əsas üsulu olan canlı müşahidəni əks etdirirdi. Belə müşahidə konkret və fərdi faktın həm bədii, həm də elmi mənasını ortaya qoyurdu. Yeni cərəyan Avropanın digər ölkələrində də özünə tərəfdarlar tapdı. E.Zolya müəyyən tibbi və genetik fərziyyələri təsvir edən, tibbi eksperimenti proses kimi təsvir edən əsərlər də yazmışdır.

Naturalistlər həm də coşqun inkişaf edən təbiətşünaslığın, xüsusilə darvinizmin müşahidə yolu ilə təbiəti öyrənmək metodunun təsiri altında idilər. Onlar da obrazın, xüsusilə insan obrazlarının dəqiq təsvirini, müşahidə vasitəsilə göstərilməsini, hətta fərdlərin genetik xüsusiyyətlərini belə dəqiq qələmə almağı tələb edirdilər. Təbiət mənasına gələn "natura" sözü də bununla əlaqədar idi. Ədəbi təsvirin dəqiqliyi elmi fakt dəqiqliyi ilə müqayisə olunurdu və yazıçıdan elmi obyektivlik tələb edilirdi.

Dövrün tələbləri artdıqca Almaniya ədəbiyyatında, mədəniyyətində cərəyanlar yeni şəkillər almağa başlamışdır. Bunlardan biri "ekspressionizm" idi. "Ekspressionizm" Birinci Dünya müharibəsinə (1914-1918) və ənənəvi ictimai və siyasi strukturların dağılması nəticəsində yaranan xaosa reaksiya olaraq səhnəyə çıxdı. Bir çox ekspressionist əsərlər qorxulu keyfiyyətə malik idi. Hər şeydən əvvəl, ekspressionizm bütün ənənəvi bədii standartların rədd edildiyi radikal eksperimentlər hərəkatı idi. Ekspressionizm magik realizmin nüvəsində dayanırdı.

"Ekspressionizm" incəsənətin bütün formalarında böyük bir cərəyan idi. Ekspressionist yazıçılar və rəssamlar təbiətin təsvirini mülayim və qeyri-kafi hesab etmiş, müəllifin daxili aləmindən süzülmüş duyğu və şərhlərə önəm vermişlər.

Ekspressionist yazıçılardan ən böyüyü Frans Kafka idi. Onun uzaqgörən üslubu qəribə obrazlar yaratmışdır. Kafkanın "Məhkəmə" (1925), "Çevrilmə" romanları yazıçının özünəməxsus əsərlərindən idi.

Göründüyü kimi, XX əsrin əvvəllərində Almaniya mədəniyyətində, ədəbiyyatında realizm yeni qəliblərə, yeni adlara düşdü. Lakin bütün haqqında bəhs edilən cərəyanlar ya realizmin bir qolu, ya da davamçısı kimi götürülə bilər və onlar üçün ortaq cəhət reallığın əksi, romantizm kimi cərəyanlara qarşı qurulmasıdır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Alman ədəbiyyatı antologiyası. Bakı: Şərq-Qərb, 2009, 688 s.
2. Fricke Schreiber, Geschichte der deutschen Literatur, Ferdinand Schöningh, Paderborn, 1988, s. 83
3. Güven B.E. Aydınlanma felsefesi ve alman aydınlanma edebiyatı. Trakya Üniversitesi Edebiyat Fakültesi Dergisi, Cilt: 10, Sayı: 20, Temmuz 2020, s. 307-321
4. Андреюшкина, Т. Н. Иоганнес Роберт Бехер / Т. Н. Андреюшкина // История литературы Германии XX века : в 2 т. Т. 1. Книга вторая. Литература Германии между 1918 и 1945 годами. – М. : ИМЛИ РАН, 2018. – С. 379-393.
5. Горький, М. О пролетарском писателе. Письмо литкружковцам профтехнической школы города Покровска / М. Горький // Правда. – 24.04.1928.
6. Добряшкина, А. В. Литература в изгнании / А. В. Добряшкина // История литературы Германии XX века : в 2 т. Т. 1. Книга вторая. Литература Германии между 1918 и 1945 годами. – М. : ИМЛИ РАН, 2018. – С. 835-864.
7. Кудрявцева, Т. В. К истокам социалистического реализма в Германии / Т. В. Кудрявцева. – Текст : непосредственный // Филологический класс. – 2022. – Т. 27, № 1. – С. 194-206.


**Açar sözlər:** Almaniya, realizm, naturalizm, sosializm, ədəbiyyat

**Ключевые слова:** Германия, реализм, натурализм, социализм, литература
**Keywords:** Germany, realism, naturalism, socialism, literature

**Xülasə**

20-ci əsrin əvvəllərində Almaniyada realizm ilk növbədə T. Mann, Kellermann, Vassermanın adları ilə əlaqələndirilir. Tənqidi realizmin inkişafi ilə Alman ədəbiyyatı Höte, Şiller, Heinedən sonra uzun müddət itirdiyi dünya şöhrətini yenidən qazanır. Almaniyanın mədəni həyatında yüksəliş ölkədə ictimai-siyasi mübarizənin güclənməsi, müxalifətin, antiimperialist əhval-ruhiyyənin artması, fəhlə hərəkatının yüksəlişi ilə sıx bağlıdır. 20-ci əsrin realist ədəbiyyatının inkişafi burjua mədəniyyətinin kəskin böhranı və modernist hərəkatların geniş yayılması şəraitində baş verirdi. Buna görə də, hətta ən böyük yazıçıların yaradıcılığına dekadent təsirlər müxtəlif dərəcədə təsir etdi. Nə Mann, nə də Kellerman bundan qaça bilmədilər ki, bu da, şübhəsiz ki, bu realistlərin ideya-bədii inkişaf yolunu çətinləşdirirdi. Məqalədə realizmin qolları, eləcə də realizmə yaxın olan cərəyanlardan söz açılır.

**Организация и особенности реализма в немецкой литературе первой половины XX века**

**Резюме**

Реализм начала XX в. в Германии связан прежде всего с именами Г. и Т.Маннов, Келлермана, Вассермана. С развитием критического реализма немецкая литература снова завоевывает мировое признание, надолго утраченное ею после Гете, Шиллера, Гейне. Подъем в культурной жизни Германии тесно связан с усилением социально-политической борьбы в стране, с ростом оппозиционных, антиимпериалистических настроений, с ростом рабочего движения. Развитие реалистической литературы XX в. происходит в условиях острейшего кризиса буржуазной культуры, широкого распространения модернистских течений. Поэтому даже на творчестве крупнейших писателей в разной мере сказались декадентские влияния. Этого не удалось избежать ни Маннам, пи Келлерману, что, несомненно, усложнило путь идейно-художественного развития этих реалистов. В статье рассматриваются отрасли реализма, а также течения, близкие к реализму.

**Organızatıon and characterıstıcs of realısm ın german lıterature ın the first half of the 20th century**

**Summary**

At the beginning of the 20th century, realism in Germany is primarily associated with the names of T.Mann, Kellermann, Wasserman. With the development of critical realism, German literature is regaining its long-lost world fame after Goethe, Schiller and Heine. The rise in the cultural life of Germany is closely related to the strengthening of social and political struggle in the country, the rise of opposition, anti-imperialist mood, and the rise of the labor movement. The development of realist literature of the 20th century took place in the conditions of the sharp crisis of bourgeois culture and the wide spread of modernist movements. Therefore, the work of even the greatest writers was influenced to varying degrees by decadent influences. Neither Mann nor Kellerman could avoid it, which undoubtedly complicated the idea-artistic development path of these realists. The article discusses the branches of realism, as well as currents close to realism.

**RƏYÇİ: dos. S.Abbasova**